**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat"da dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 yanvar tarixli 35s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əməkhaqqının ödənilməsi barədə İzahat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin ikinci abzasına "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri və "yuxarıda qeyd edilən həddə" sözlərindən sonra "(Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən daha yüksək həddin müəyyən edildiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 2-ci hissənin üçüncü abzasına və 7-ci hissəyə (birinci halda) "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri əlavə edilsin.

2. Nazirliyin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə çatdırılmasını təmin etsin.

3. Nazirliyin Aparatının İctimaiyyətlə əlaqələr şöbəsinə (F.Talıbov) tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarixdən 72 saat müddətində rəsmi dərc edilməsini təmin etsin.

4. Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il 17 yanvar tarixli 22040001074 nömrəli Əmri ilə müəyyən edilmiş vəzifə bölgüsünə əsasən həyata keçirilsin.

**Kollegiyanın sədri** **Sahil Babayev**

**“Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat”ında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiya Qərarı layihəsinin qəbul olunması zərurətinin ƏSASLANDIRILMASI**

“Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 yanvar tarixli 35s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat”ında dəyişikliklər edilməsi zərurəti yaratmışdır.

**Əmək siyasəti şöbəsinin müdiri** **Fuad Heydərov**

**“Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat”ında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı layihəsinə dair məcburi hüquqi ekspertiza rəyi**

**1.** “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 yanvar tarixli 35s nömrəli Sərəncamının 2-ci hissəsini təmin etmək məqsədilə “**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2001-ci il 29 iyul tarixli 9-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əmək haqqının ödənilməsi barədə İzahat”ında dəyişiklik edilməsi haqqında**” Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı layihəsi (bundan sonra – Layihə) hazırlanmışdır.

**2.** Layihə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 8-ci maddəsində təsbit olunan normayaratma fəaliyyətinin əsas prinsiplərinə uyğundur.

**3.** Layihənin normaları onun məqsəd və vəzifələrinə uyğundur.

**4.** Layihə normativ tənzimləmə predmetinə uyğundur.

**5.** Layihənin forması və mahiyyəti uyğundur.

**6.** Layihənin daxili strukturu məntiqlidir.

**7.** Layihəyə daxil edilən normalar qarşılıqlı ziddiyyətsizdir.

**8.** Layihədə bir dövlət orqanının digər dövlət orqanının səlahiyyətlərinə müdaxiləsinə yol verilməmişdir.

**9.** Layihənin Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”nin 5.10-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qəbul edilməsi təklif olunur.

**10.** Layihənin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 20.2-ci maddəsinə əsasən qərar formasında qəbul edilməsi təklif olunur.

**11.** Layihə normayaratma texnikasına uyğun şəkildə hazırlanmışdır.

**12.** Layihədə sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri, sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən müddəalar aşkar edilməmişdir.

**13.** Layihənin normativ hüquqi akt olaraq qəbul edilməsi dəstəklənir.

**Azərbaycan Respublikası Əmək**
**və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin**
**Aparatının Hüquq şöbəsinin müdiri** **Gülnar İsgəndərova**